**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/3** **13 iyun 2025-ci il**

**Auditorlar tərəfindən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə əməl olunması vəziyyəti barədə aparılmış sorğunun nəticələri barədə**

Azərbaycan Respublikası Adutorlar Palatasının 2025-ci il üzrə iş planının 11.6-cı "Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması" bəndinin və Auditorlar Palatası sədrinin 2025-ci il 21 yanvar tarixli 10-1/3-3-3/2025 nömrəli "Auditorlar Palatası tərəfindən 2025-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə" sərəncamı ilə təsdiq edilmiş qrafikin 1-ci "Auditorlar tərəfindən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə əməl olunması vəziyyətinə dair" bəndinə uyğun olaraq 2025-ci il 06 fevral – 01 mart tarixlərində auditorlar arasında aparılmış sorğunun nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar tərəfindən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə əməl olunması vəziyyətinə dair" aparılmış sorğunun nəticələri barədə təhlil nəzərə alınsın (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, iki həftə müddətində sosioloji sorğunun nəticələrinə dair təklif və tövsiyələr nəzərə alınmaqla müvafiq Tədbirlər Planının layihəsinin hazırlanması və Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin.

3. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, iki həftə müddətində aşağıdakı müddəaların reallaşdırılmasına dair təkliflərini hazırlayıb Tədbirlər Planına daxil edilməsi məqsədilə Palatanın rəhbərliyinə təqdim etsinlər:

3.1. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi üzrə praktik və nəzəri əsaslı sertifikat proqramlarının təşkil olunması;

3.2. Etika Məcəlləsinə riayət etməyən auditorlar üçün məcburi etik maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

3.3. Azərbaycan dilində sadə və interaktiv təlim modulları, videodərsliklər və test platformalarının hazırlanması və üzvlər arasında təşviq edilməsi;

3.4. Auditorlar Palatası tərəfindən digər qurumlarla birgə müntəzəm olaraq sertifikatlı onlayn və hibrid formatda etik təlimlərin keçirilməsi;

3.5. Etik dilemmanın həlli üzrə simulyasiyalar və praktiki məşğələlərin genişləndirilməsi.

4. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, auditorlar tərəfindən etik davranışlara əməl olunmasına dair planlı monitorinqlərin aparılması təmin edilsin və etik qaydaları pozan auditorlar barəsində müvafiq qaydada intizam və tənbeh tədbirlərinin görülməsi məqsədilə təkliflərini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsinlər.

5. İcimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova) tapşırılsın ki:

5.1. Auditor peşəsinin nüfuzunun artırılması üçün etika məsələlərini media vasitəsilə geniş işıqlandırsın, müsbət nümunələr təqdim etsin;

5.2. “Mənim davranışım, şirkətimin imicidir” devizi ilə müsabiqələr və motivasiya tədbirləri təşkil edilsin;

5.3. Auditorlar üçün “Ən Etik Auditor” mükafatı, sertifikat və digər fərqləndirmə vasitələri tətbiq olunsun.

6. Palatanın Şurası yanında Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam Komissiyasına (K.Hüseynov) tapşırılsın ki, bir ay müddətində komissiyanın vəzifə və funksiyalarının yeni Peşə Etikası Məcəlləsinin tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi təmin edilsin.

7. Sosioloji sorğunun yüksək səviyyədə aparılması və nəticələrinə dair təklif və tövsiyələrin hazırlanmasına görə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin əməkdaşlarına təşəkkür elan edilsin.

8. Bu qərarın və sorğunun mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Əsli ilə düzdür

Şuranın sədri Vahid Novruzov

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic
Ümumi şöbə